**“Təsdiq edilmişdir”**

**Azərbaycan Respublikasının**

**Milli Depozit Mərkəzinin**

**Müşahidə Şurasının**

**24 oktyabr 2016-cı il tarixli qərarı**

**( 18 №-li protokol)**

**Sədr ____________ B.Əzizov**

M/Y

## Qiymətli kağız mülkiyyətçilərinin reyestrinin formalaşdırılması və aparılması üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin daxili Qaydaları

### 1. Ümumi müddəalar

1.1. “Qiymətli kağız mülkiyyətçilərinin reyestrinin formalaşdırılması və aparılması üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin daxili Qaydaları” (bundan sonra - bu Qaydalar) Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Azərbaycan Respublikasının “Qiymətli kağızlar bazarı haqqında” Qanununun müddəalarına uyğun olaraq hazırlanmışdır və depozitar sistemində qiymətli kağız mülkiyyətçilərinin reyestrinin formalaşdırılması və aparılması qaydalarını müəyyən edir.

1.2. Bu Qaydaların 1.1-ci bəndində göstərilmiş normativ hüquqi aktlarla bu Qaydalar arasında ziddiyyət aşkar edildikdə normativ hüquqi aktların müddəaları tətbiq edilir.

1.3. Bu Qaydalar depozitar sistemində saxlanılan və uçotu aparılan sənədsiz investisiya qiymətli kağızları əhatə edir.

## 2. Anlayışlar

2.1. **Depozitar sistemi –** qiymətli kağızların sənədsizləşdirilməsi, saxlanılması, uçotu, onlarla təsbit edilmiş hüquqların təsdiqi, öhdəliklərlə yüklənməsi, qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması, Azərbaycan Respublikasının "İnvestisiya fondları haqqında" Qanunu ilə müəyyən edilmiş qaydada pul hesablarının açılması, həmin hesablar üzrə əməliyyatların aparılması və pul köçürmələrinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (bundan sonra – MDM) və onun üzvləri arasında olan münasibətlər sistemidir.

2.2. **Emitentlər –** depozitar sistemində adlarına emitent hesabı açılmış, qanunvericiliklə nəzərdə tutulmuş qaydada qiymətli kağız buraxan hüquqi şəxslərdir.

2.3. **Əsas hesablar –** özündə qiymətli kağızlar haqqında məlumatları və bu qiymətli kağızlar üzərində hüquqların uçotunu əks etdirən hesablardır. Əsas hesablar emitent hesabı və depo hesablarından ibarətdir.

2.4. **Yardımçı hesablar –** depozitar sisteminin iştirakçılarının identifikasiyası və onların depozitar sistemdə səlahiyyət və funksiyaları barədə qeydləri əks etdirən hesablardır. Yardımçı hesablar şəxsi hesab, iştirakçı hesabı və üzv hesabından ibarətdir.

2.5. **Emitent hesabı -** MDM tərəfindən qiymətli kağız emitentləri üçün onların müraciəti əsasında açılan hesabdır. Emitent hesabı emissiya və xəzinə sub-hesabların bölünür.

2.6. **Deponentlər –** adlarına depo hesabı açılmış və bu hesabda olan qiymətli kağızlara mülkiyyət hüququ olan (nominal saxlayıcı istisna olmaqla) hüquqi və fiziki şəxslərdir.

2.7. **Depo hesabı -** MDM və ya onun üzvü olan investisiya şirkəti tərəfindən deponentlər üçün onların müraciəti əsasında açılan hesabdır. Depo hesabı nominal saxlayıcı üçün açıldıqda nominal saxlayıcı hesabı, marja ticarəti üçün açıldıqda marja hesabı, idarəçi üçün açıldıqda isə idarəçi hesabı adını daşıyır.

2.8. **Nominal saxlayıcı hesabı -** müqavilə və ya etibarnamə əsasında investorun tapşırığı ilə və onun xeyrinə qiymətli kağızlara dair hüquqları həyata keçirən, qiymətli kağız mülkiyyətçilərinin reyestrində qeydə alınmış, qiymətli kağızların mülkiyyətçisi olmayan xarici depozitar və ya xarici investisiya şirkətidir.

2.9. **İştirakçı hesabı –** emitentlər və deponentlərin depozitar sistemində məxsus olduqları hesablar barədə qeydləri əks etdirir. Bu hesab şəxsi hesab(lar) ilə qiymətli kağız hesabları arasında əlaqələndirmənin təmin olunması üçün istifadə olunur.

2.10. **Şəxsi hesab –** depozitar sisteminin iştirakçıları üzrə şəxsi məlumatların saxlandığı hesabdır.

2.11. **Qiymətli kağız mülkiyyətçilərinin reyestri** (bundan sonra reyestr) **–** emitent, onun qiymətli kağızları, qiymətli kağız mülkiyyətçiləri və nominal saxlayıcılar barədə məlumat toplusudur.

2.12. **Qiymətli kağız mülkiyyətçilərinin reyestrindən çıxarış –** reyestr əsasında formalaşan və qiymətli kağız mülkiyyətçisinə məxsus qiymətli kağıza dair məlumat toplusudur.

## 3. Reyestrin məlumat tərkibi

3.1. Reyestrin məlumat tərkibi emitent, onun buraxdığı qiymətli kağız haqqında məlumatlar və qiymətli kağız mülkiyyətçilərinin siyahısından ibarətdir.

3.2. Emitent haqqında məlumat aşağıdakılardan ibarətdir:

3.2.1. Emitentin şəxsi məlumatları - tam adı, hüquqi ünvanı, dövlət qeydiyyat nömrəsi və depozitar sistemində bu şəxs üçün açılmış iştirakçı hesabının nömrəsi;

3.2.2. Emitenti təmsil edən səlahiyyətli şəxslərin adları və vəzifələri.

3.3. Qiymətli kağız barədə məlumat aşağıdakılardan ibarətdir:

3.3.1. Qiymətli kağızın növü və buraxılış forması;

3.3.2. Qiymətli kağızın nominal dəyəri;

3.3.3. Qiymətli kağızın dövlət qeydiyyat nömrəsi, tarixi və qeydiyyata almış orqanın adı;

3.3.4. Buraxılmış, yerləşdirilmiş, yerləşdirilmədə olan və geri satın alınmış qiymətli kağızların sayı.

3.4. Qiymətli kağız mülkiyyətçilərinin siyahısı aşağıdakı məlumatlardan ibarətdir:

3.4.1. Qiymətli kağız mülkiyyətçilərinin iştirakçı hesabının nömrəsi;

3.4.2. Hüquqi şəxs olan deponentlər üçün – tam adı, ünvanı və dövlət qeydiyyat nömrəsi;

3.4.3. Fiziki şəxs olan deponentlər üçün – adı, atasının adı, soyadı, ünvanı və şəxsiyyətini təsdiq edən sənədin göstəriciləri;

3.4.4. Sahib olduğu qiymətli kağızların sayı;

3.4.5. Sahib olduğu və öhdəliklərlə yüklənmiş qiymətli kağızların sayı;

3.4.6. Sahib olduğu qiymətli kağızların sayının yerləşdirilmiş qiymətli kağızların ümumi sayına faiz nisbəti.

## 4. Reyestrin formalaşdırılması və aparılması

4.1. Reyestr MDM və emitent arasında müvafiq müqavilənin bağlanmasından sonra depozitar sistemində açılmış əsas və yardımçı hesablarda olan məlumatlara əsasən formalaşır.

4.2. Reyestr aşağıdakı hesablarda olan məlumatlara əsasən aparılır:

4.2.1. Bu Qaydaların 3.2-ci və 3.3-cü bəndlərində göstərilmiş məlumatlar – şəxsi və emitent hesabları üzrə**;**

4.2.2. Bu Qaydaların 3.4-cü bəndində göstərilmiş məlumatlar – şəxsi və depo hesabları üzrə.

## 5. Reyestrdən çıxarışların verilməsi

5.1. MDM reyestrə dair məlumatları reyestrdən çıxarış formasında aşağıdakı şəxslərə və ya onların səlahiyyətli nümayəndələrinə sorğu əsasında təqdim edir:

5.1.1. Emitentə;

5.1.2. Deponentə (yalnız özünə aid məlumatlar üzrə);

5.1.3. Qanunvericiliklə müəyyən edilmiş hallarda digər orqanlara.

5.2. Reyestrdən çıxarış kağız və ya elektron daşıyıcılarda təqdim edilir.

**6. Məsuliyyət dairəsi**

6.1. MDM qiymətli kağız mülkiyyətçilərinin reyestrində əks olunan məlumatların dürüstlüyünə görə məsuliyyət daşıyır.

6.2. Emitent reyestr formalaşması zamanı MDM-ə təqdim etdiyi məlumatların dürüstlüyünə görə məsuliyyət daşıyır.